

# İlham Əliyev, Siz əsl dostluğun və qardaşlığın nə demək olduğunu bizə növbəti dəfə göstərdiniz

## Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin bu səfəri ilə bütün dünyaya, xüsusilə də bütün terror təşkilatlarına və onların arxasındakı qüvvələrə çox güclü və dəqiq mesaj verdiyini bəyan etdi

Çağdaş dünyamız olduqca narahat günlərini yaşayır. Yaxın Şərqdə, ərəb ölkələrində baş verən son hadisələr, milyonlarla insanın qaçqın düşməsi çox təhlükəli hərbi-siyasi ssenarilərdən xəbər verir. Belə bir vaxtda mənəvi tellərlə bir-birinə bağlı olan türk xalqlarının və dövlətlərinin birlik nümayiş etdirmələri olduqca vacibdir. Çünki bu, dünyada cərəyan edən proseslərə təsir göstərə bilmək və milli maraqlarımızı müdafiə etmək baxımından çox ciddi siyasi vasitədir.

Türk dövlətləri ilə əlaqələrində məhz bu mövqedən çıxış edən və bu prinsiplərə sadiq qalan Azərbaycan ortaq dəyərlərin bəxş etdiyi imkanların türk xalqlarının ümumi mənafeyinə səfərbər olunmasına, münasibətlərin etibarlı təməllər üzərində inkişaf etdirilməsinə böyük töhfələr verir. Təsadüfi deyil ki, ötən 25 ildə Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqamətlərindən birini türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi təşkil edib. İndinin özündə də bu istiqamət Azərbaycan hakimiyyətinin həyata keçirdiyi xarici siyasətin aparıcı xətlərindən biri olaraq qalır. Elə buna görədir ki, Azərbaycanın türk dövlətləri, o cümlədən Türkiyə ilə əlaqələri yalnız yüksələn xətt üzrə inkişaf etmişdir. Bir soydan qaynaqlanan etnik ortaqlıqla, dil və mədəniyyət kimi mənəvi dəyərlərlə bir-birinə bağlı olan Azərbaycan və Türkiyə dövlətləri yalnız mehriban qonşuluq münasibətlərini deyil, ölkələrimizin daha da yaxınlaşmasını şərtləndirən mənəvi amilləri də rəhbər tutaraq tarixən mövcud olmuş əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün qarşılıqlı olaraq bütün zəruri addımları atıblar. Odur ki, təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə münasibətləri bu gün həm də strateji önəm daşıyır.

Son illər türk dünyasının liderləri olan Azərbaycan və Türkiyə çox böyük uğurlar qazanaraq, sosial-iqtisadi baxımdan onilliklərə bərabər inkişaf yolu keçiblər. Bu dövrdə əldə olunan iqtisadi nailiyyətlər təbii ki, iki ölkənin münasibətlərində də özünü büruzə verib. Ötən illərdə məhz Azərbaycanın təşəbbüsü sayəsində Türkiyə ilə enerji daşıyıcılarının nəqli istiqamətində əməkdaşlıq əlaqələri dərinləşib. Xüsusən, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi dəmir tellər bu iki türk dövləti arasındakı strateji münasibətlərə yeni məzmun gətirib. Bunlardan başqa, ideya təşəbbüsü yenə də Azərbaycana məxsus olan və inşası bu il başa çatacaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti də Azərbaycan-Türkiyə münasibətlərinin nə qədər möhtəşəm olduğunu göstərməklə yanaşı, bu iki dövlət arasındakı əməkdaşlığın nəinki regional, həm də qlobal miqyasda iqtisadi yüksəlişə və beynəlxalq həmrəyliyə töhfə vermək iqtidarında olmasından xəbər verir. TANAP layihəsi isə Azərbaycanla Türkiyə arasındakı sosial, iqtisadi və digər sahələrdə indiyədək mövcud olan qardaşlıq münasibətlərinə əlavə dəstəkdir. Bütün bu layihələrin gerçəkləşməsində Azərbaycanın bu bölgədə keçirdiyi müstəqil siyasət və Prezident İlham Əliyevin siyasi iradəsi mühüm rol oynayır.

İki ölkə arasındakı münasibətlərə rəmzi baxımdan xüsusi əhəmiyyət qatan mühüm məqamlardan biri də dövlət başçılarının seçkilərdən sonra etdikləri səfərlərdir. Türkiyənin rəhbərliyi seçkilərdən sonra ilk səfərini Azərbaycana, Azərbaycan rəsmiləri isə Türkiyəyə edirlər. Dövlət başçılarının ilk rəsmi səfərlərini məhz qardaş ölkəyə etməsi bir daha təsdiqləyir ki, bu, artıq xoş ənənəyə çevrilməklə yanaşı, ölkələrimiz arasında strateji əməkdaşlığa və müttəfiqliyə verilən önəmin göstəricisidir.

Azərbaycan və Türkiyə dostluq, qardaşlıq əlaqələrindən qaynaqlanaraq bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. Dünya siyasi düzəninin indiki şəraitində isə hər iki ölkənin bölgədə və dünyada gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, hər iki ölkənin siyasi rəhbərliyi indiki şəraitdə daha prinsipial mövqe nümayiş etdirirlər. Digər tərəfdən, Azərbaycan həmişə ən çətin anlarında da Türkiyənin yanında olmuş, ona əməli dəstək göstərmişdir. Bunu Azərbaycan Prezidenti İlham Əliyevin martın 15-də Türkiyəyə işgüzar səfəri bir daha təsdiq etdi.

Məlum olduğu kimi, Türkiyə dövləti bu gün özünün çətin günlərini yaşayır. Son aylarda bu ölkənin müxtəlif bölgələrində onlarca terror aktı törədilmişdir. Xüsusən, paytaxt Ankarada baş verən terror aktları çoxsaylı insan itkisinə səbəb olmuşdur. Ona görə də belə ağır günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında iştirak etməsi üçün ölkəmizə səfəri həm fevral, həm də mart aylarında alınmamışdı. Fevral ayında təxirə salınan Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası martın 15-də Bakıda keçirilməli idi. Lakin Türkiyə Prezidenti bu faciəli günlərdə Bakıya gələ bilmədiyindən Azərbaycan Prezidenti İlham Əliyev əsl qardaşlıq və dostluq nümunəsi göstərərək özü Ankaraya səfər etdi. Prezident İlham Əliyev bu qərarı ilə Azərbaycan dövlətinin yaxşı günlərdə də, ağır günlərdə də hər zaman Türkiyə dövləti ilə birlikdə olduğunu nümayiş etdirdi. Eləcə də Azərbaycan növbəti dəfə əsl qardaş, etibarlı dost və səmimi tərəfdaş olduğunu əyani şəkildə təsdiq etdi.

Təsadüfi deyil ki, Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasındakı nitqinə Azərbaycan Prezidenti İlham Əliyevə bu çətin günlərdə Türkiyənin yanında olmasına və göstərdiyi həmrəyliyə görə dərin təşəkkürünü ifadə etməklə başladı: **"Sizi ikinci vətəniniz olan Türkiyədə qonaq qəbul etməkdən böyük məmnuniyyət hissi keçirdiyimi xüsusilə vurğulamaq istəyirəm. Millətimizin və ölkəmizin bu çətin günündə - Ankaranın mərkəzində, Kızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən, çox ciddi terror aktı - terror-çu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm. Bu gün Siz mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını yaşayaraq bunu açıq-aşkar nümayiş etdirdiniz. Bu səfərinizlə bütün dünyaya, xüsusilə də dünyadakı bütün terror təşkilatlarına və onların arxasındakı qüvvələrə çox güclü və dəqiq mesaj verdiyinizə əminəm. Sizə millətim adından bir daha təşəkkürümü bildirirəm"**, - deyə Rəcəb Tayyib Ərdoğan bildirdi.

Türkiyə Prezidenti həm bu səfəri, həm də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasına gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirdi. Bəyan etdi ki, Prezident İlham Əliyev Azərbaycanın Türkiyənin dar günündə dostu olduğunu, əsl dostluğun və qardaşlığın nə demək olduğunu bir daha göstərdi. Həqiqətən, Azərbaycan bütün çətin günlərində Türkiyənin yanında olub. Ölkəmiz bunu sözdə deyil, əməldə nümayiş etdirib. Məsələn, hələ bir neçə il əvvəl Fransa Senatında qondarma "erməni soyqırımı"nı inkar edənlərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı qanunun müzakirəyə çıxarılması Türkiyədə nə qədər qəzəblə qarşılandısa, Azərbaycanda da eyni hiddət doğurdu. Eyni zamanda, Azərbaycanın hər zaman qondarma "erməni soyqırımı" ilə bağlı məsələdə prinsipial mövqeyi, həmçinin Şimali Kiprin təcrid vəziyyətindən çıxarılmasına dəstək verməsi dost və qardaş Türkiyənin problemlərini öz problemlərindən ayırmadığını göstərir.

Ankarada mətbuata bəyanatında terror aktını pisləyən Prezident İlham Əliyev xalqımızın türk xalqının yanında olduğunu bəyan etdi: **"Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz. İyirmi beş ildir ki, Türkiyə və Azərbaycan birlik, həmrəylik göstərir. İyirmi beş il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan dövlət Türkiyə olmuşdur. Biz bunu heç vaxt unutmayacağıq. Bu, əslində, başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başlamışdır. Bu illər ərzində biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır".**

Azərbaycan və Türkiyə arasındakı münasibətlərin əsasında dostluq, qardaşlıq və xalqların birliyi amili dayanır. Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bu iki ölkə arasındakı münasibətlərin dünyada analoqu yoxdur və bütün sahələrdə uğurla əməkdaşlıq edirlər. Prezident İlham Əliyevin səfəri zamanı imzalanmış sənədlər, aparılan danışıqlar da bir daha iki ölkə arasında olan sıx birliyi dünyaya nümayiş etdirdi. İndi Azərbaycanla Türkiyəni təkcə ortaq mənəvi və milli dəyərlər birləşdirmir. Bizi həm də ortaq layihələr və hədəflər və eyni siyasi maraqlar birləşdirir. Bütün bunlar o deməkdir ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***